**Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin 2010-cu ildə istifadə edilməsinin əsas istiqamətləri (proqramı)**

AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ
2009-CU IL 25 DEKABR TARIXLI SƏRƏNCAMI ILƏ
TƏSDIQ EDILMIŞDIR

**Əlavə 1**

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin 2010-cu ildə istifadə edilməsinin əsas istiqamətləri (proqramı)**

I. Azərbaycan Respublikası Dövlət Neft Fondununvəsaitinin xərc istiqamətləri

1.1. Qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi;

1.2. Dövlət büdcəsinə transfert;

1.3. Oğuz-Qəbələ zonasından Bakı şəhərinə yeni su kəmərinin çəkilməsi layihəsinin maliyyələşdirilməsi;

1.4. Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi;

1.5. Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi;

1.6. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsi.

II. Azərbaycan Respublikası Dövlət Neft Fondunun investisiya siyasəti

2.1. Azərbaycan Respublikası Dövlət Neft Fondununinvestisiya siyasətinin məqsədi

2010-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (bundan sonra – Neft Fondu adlandırılacaq) investisiya siyasətinin məqsədi Neft Fondunda toplanan vəsaitin aşağı risk və aşağı qiymət dəyişkənliyi şəraitində idarə edilməsi və bu siyasətə uyğun olan gəlirliliyin əldə edilməsidir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün 2010-cu ildə Neft Fondunun vəzifəsi mühafizəkar, əsas kapitalın itirilməməsinə və təminatlı gəlirin əldə edilməsinə imkan verən investisiya siyasətinin yeridilməsidir.

2.2. Neft Fondunun investisiya portfelinin proqnozlaşdırılan həcmi

İnvestisiya portfeli – Neft Fondunun büdcəsində təsdiq edilmiş xərclərin aparılması üçün konvertasiya edilərək manat hesablarına köçürülmüş vəsait çıxıldıqdan sonra qalan xarici valyutada ifadə olunan aktivlərdən ibarətdir.

2010-cu il üzrə Neft Fondunun investisiya portfelinin proqnozlaşdırılan orta çəkili vəsait həcmi (məcmu dəyəri) 10,6 milyard manata bərabər götürülür. İnvestisiya portfelinin məcmu dəyəri

investisiya portfelinə daxil olan aktivlərin aylıq olaraq yenidən qiymətləndirilməsi əsasında müəyyən edilir.

2.3. Neft Fondunun vəsaitinin likvidliyi üzrə tələblər

Neft Fondunun vəsaitinin likvidlik dərəcəsi Fondun büdcə xərcləri üzrə planlaşdırılan pul və digər köçürmələrinin tam və vaxtında yerinə yetirilməsini təmin etmək üçün yetərli səviyyədə saxlanılmalıdır. Bu səviyyəni təmin etmək məqsədilə Neft Fondunun vəsaitinin 100 milyon ABŞ dollarından az olmayan hissəsi nağd vəsait və ya onun ekvivalentlərində saxlanmalıdır. Bu vəsaitin həcminin göstərilən məbləğdən az olması halı 7 təqvim günündən çox davam etməməlidir.

2.4. Neft Fondunun investisiya portfelinin valyuta tərkibi (səbəti) üzrə tələblər

ABŞ dolları Neft Fondunun investisiya portfelinin baza valyutası müəyyən edilir.

Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin:

- 50 faizi ABŞ dollarında ifadə olunan aktivlərə;

- 40 faizi AVRO-da ifadə olunan aktivlərə;

- 5 faizi İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə yerləşdirilir.

Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 5 faizi isə “A” (Standart and Purz, Fiç) və ya “A2” (Mudiz) kredit reytinqindən aşağı olmayan uzunmüddətli ölkə (suveren borc) reytinqinə malik olan ölkələrin valyutalarında və ya ABS dollarında və ya xüsusi çəkidəki mütənasiblik əsasında bölüşdürülərək ABŞ dolları, AVRO və İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə yerləşdirilə bilər.

2.5. Risklərin idarə olunması üzrə tələblər

Faiz dərəcəsi riski - Neft Fondunun investisiya portfelinin faktiki ortaçəkili investisiya müddəti (durasiyası) dünya bazarlarındakı cari vəziyyətdən asılı olaraq Fond tərəfindən müəyyən edilir və 48 ayı üstələməməlidir.

Kredit riski - Neft Fondunun valyuta vəsaiti yalnız investisiya kredit reytinqli aktivlərdə və ya investisiya kredit reytinqli emitentlərin qiymətli kağızlarında yerləşdirilə bilər.

Bir maliyyə qurumunun (depozitar banklar istisna olmaqla) və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15 faizi həddində müəyyən edilir.

2.6. Neft Fondunun valyuta vəsaitinin xarici menecerlərinidarə edilməsinə verilməsi üzrə tələblər

Xarici menecerlərin idarə edilməsinə verilən vəsaitin həcmi aşağıdakı kimi müəyyən edilir:

- xarici menecerlərə idarəetməyə verilən vəsaitin ümumi həcmi – investisiya portfelinin məcmu dəyərinin 60 faizindən artıq olmayan hissəsi;

- bir xarici menecerə idarəetməyə verilən vəsaitin maksimal həcmi - investisiya portfelinin məcmu dəyərinin 15 faizindən artıq olmayan hissəsi.

Neft Fondunun vəsaitinin idarə edilməsinə cəlb edilən xarici menecerlərin investisiya siyasəti Neft Fondu ilə bu menecerlər arasında bağlanan investisiya sazişində əks etdirilməlidir.

2.7. İnvestisiya portfelinin idarə edilməsininproqnozlaşdırılan gəlirlilik səviyyəsi

Neft Fondunun investisiya portfelindəki aktivlərin (investisiya portfelinin idarəetmə xərcləri çıxılmaqla) idarə edilməsinin hədəf gəlirliliyi (bençmark) kimi Britaniya Bankirlər Assosiasiyası tərəfindən müvafiq valyuta üzrə dərc edilmiş 3 (üç) aylıq LIBOR faiz dərəcəsi götürülür.

2.8. Neft Fondunun valyuta vəsaitininidarə edilməsi üzrə məhdudiyyətlər

Neft Fondunun valyuta vəsaiti Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"da nəzərdə tutulan investisiya aktivləri və onların əldə edilməsi üçün zəruri əməliyyatların aparılması istisna olmaqla, başqa istiqamətlərə, o cümlədən qiymətli metalların və daşların, hər hansı daşınmaz əmlakın, malların alınmasına investisiya edilə bilməz.

Neft Fondunun valyuta vəsaiti bu Əlavənin 2.4. bəndində göstəriləndən başqa valyutaların alınmasına yalnız həmin valyutaların ABŞ dollarına qarşı məzənnə dəyişkənliyi riskinin sığortalanması (hec) şərti ilə investisiya edilə bilər.

Neft Fondunun valyuta vəsaiti idarə edilərkən valyuta arbitrajı, svop, forvard, fyüçers, opsion tipli törəmə qiymətli kağızlarla əməliyyatlar yalnız maliyyə bazarlarında əməliyyatların aparılması zamanı qiymətin, yaxud məzənnənin dəyişməsi ilə əlaqədar mümkün riskin minimuma endirilməsi (hecinq) və ya investisiya portfelinin valyuta tərkibinin və aktivlər strukturunun optimallaşdırılması məqsədilə həyata keçirilə bilər.

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2010-cu ildə idarə edilməsi ilə bağlı xərclər smetası**

| **Bölmə** | **Köməkçi bölmə** | **Paraqraf** | **Maddə** | **Yarımmaddə** | **Xərc maddəsinin kodu** | **Xərclərin ümumi məbləği (manatla)** |
|---|---|---|---|---|---|---|
| **ƏMƏYİN ÖDƏNİŞİ** | | | | | **210000** | **2,647,400** |
| | **ƏMƏK HAQQI** | | | | **211000** | **2,170,000** |
| | | Ştatda olan işçilərin ə/h | | | 211100 | 1,680,000 |
| | | Ştatdan kənar işçilərin ə/h | | | 211200 | 70,000 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | Əməyin ödənişi ilə bağlı sair pul ödənişləri | | | 211300 | 420,000 |
| | **ƏMƏK HAQQINA ÜSTƏLİK** | | | | **212000** | **477,400** |
| | | Dövlət sosial müdafiə fonduna ayırmalar | | | 212100 | 477,400 |
| **MALLARIN (işlərin və xidmətlərin) SATIN ALINMASI** | | | | | **220000** | **787,680** |
| | **İdarənin saxlanılması** | | | | **221000** | **61,000** |
| | | Dəftərxana və təsərrüfat xərcləri | | | 221100 | 18,500 |
| | | Mətbəə xərcləri | | | 221200 | 19,000 |
| | | İdarənin digər xərcləri | | | 221300 | 23,500 |
| | | | İdarənin sair xərcləri | | 221310 | 13,500 |
| | | | Cari təmir | | 221320 | 10,000 |
| | **Ezamiyyə xərcləri** | | | | **222000** | **245,250** |
| | | Ölkədaxili ezamiyyətlər | | | 222100 | 250 |
| | | Xarici ezamiyyətlər | | | 222200 | 245,000 |
| | **Nəqliyyat xidmətləri haqqının ödənilməsi** | | | | **223000** | **36,000** |
| | | Yanacaq və sürtkü materiallarının alınması | | | 223100 | 18,000 |
| | | Digər nəqliyyat xidmətləri | | | 223200 | 18,000 |
| | **Kommunal və kommunikasiya xidmətlərinin ödənilməsi** | | | | **224000** | **215,330** |
| | | Elektrik enerjisi haqqının ödənilməsi | | | 224100 | 15,000 |
| | | Qaz haqqının ödənilməsi | | | 224200 | 2,000 |
| | | Su haqqının ödənilməsi | | | 224300 | 1,200 |
| | | Kanalizasiya | | | 224500 | 500 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | xidmətləri haqqının ödənilməsi | | | | |
| | | Digər kommunal xidmətləri haqqının ödənilməsi | | | 224600 | 3,850 |
| | | Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclər | | | 224700 | 7,000 |
| | | Telefon danışıq haqlarının ödənilməsi | | | 224800 | 31,400 |
| | | | Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | | 224810 | 16,400 |
| | | | Beynəlxalq telefon danışıqları haqlarının ödənilməsi | | 224820 | 15,000 |
| | | Poçt-rabitə xidmətləri | | | 224900 | 154,380 |
| | | | Poçt xidmətlərinin ödənilməsi | | 224910 | 116,885 |
| | | | "İnternet" xidməti haqqının ödənilməsi | | 224920 | 37,495 |
| | **İstehlak mallarının və materiallarının alınması** | | | | **225000** | **228,500** |
| | | Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması | | | 225200 | 3,000 |
| | | Digər istehlak mal və materialların alınması | | | 225400 | 225,500 |
| | | | İnventar və avadanlığın alınması | | 225410 | 225,500 |
| | | | | İnventarın alınması | 225411 | 10,000 |
| | | | | Avadanlığın alınması | 225412 | 9,860 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | Digər alışlar və xidmətlər | 225413 | 205,640 |
| | **Sair xidmətlərin haqqının ödənilməsi** | | | | **226000** | **1,600** |
| | | Abadlaşdırma xidmətləri haqqının ödənilməsi | | | 226200 | 1,600 |
| **TƏQAÜDLƏR VƏ SOSİAL MÜAVİNƏTLƏR** | | | | | **270000** | **51,000** |
| | **Sosial müdafiə üzrə müavinətlər** | | | | 272000 | 50,000 |
| | | Natural formada olan sosial yardımlar | | | 272200 | 50,000 |
| | **Digər təqaüdlər, müavinətlər və transfertlər** | | | | 274000 | 1,000 |
| | | Digər müavinət və transfertlər | | | 274800 | 1,000 |
| **DİGƏR XƏRCLƏR** | | | | | **280000** | **9,078,970** |
| | **Faizlər üzrə ödənişlər istisna olmaqla mülkiyyətlə bağlı xərclər** | | | | **281000** | **1,270,000** |
| | | İcarə və muzdlu xidmətlər | | | 281400 | 1,270,000 |
| | **Sair müxtəlif xərclər** | | | | **282000** | **7,808,970** |
| | | Sair xərclər | | | 282100 | 6,657,390 |
| | | o cümlədən MHŞT ilə bağlı xərclər | | | | 134,137 |
| | | Bank xərcləri | | | 282300 | 1,151,580 |
| **QEYRİ-MALİYYƏ AKTİVLƏRİN ALINMASI** | | | | | **310000** | **20,866,150** |
| | **Əsas vəsaitlər** | | | | **311000** | **20,041,290** |
| | | Bina və tikililər | | | 311100 | 20,000,000 |
| | | | Qeyri-yaşayış binaları | | 311120 | 20,000,000 |
| | | | | Qeyri-yaşayış binalarının tikintisi | 311122 | 20,000,000 |
| | | Maşın və avadanlıqlar | | | 311200 | 41,290 |
| | | | Digər maşın və | | 311220 | 41,290 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | avadanlıqlar | | | |
| | **Qeyri-istehsal aktivləri** | | | | **314000** | **824,860** |
| | | İstehsalda istifadə olunmayan qeyri-maddi aktivlər | | | 314400 | 824,860 |
| **ÜMUMİ XƏRCLƏR** | | | | | | **33,431,200** |